# 18 aprel—Tarixi abidələrin mühafizəsi günüdür

## Maddi-mədəniyyət abidələrimizi qoruyaq

Azərbaycan tarixi abidələrlə, məqbərələrlə və məbədlərlə zəngin ölkədir. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Abidələrimiz ölkənin tarixinin qədimliyi, onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu sahədə ölkəmiz qədim abidələr vətəni kimi tanınır. Qobustan, Gəmiqaya, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Gələsən-Görəsən kimi qalalarımız, Möminə Xatun, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Təzəpir məscidi və s. dini ibadətgahlarımız, Şirvan şahlar, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz—Azıx və Tağlar mağaraları qədim insan yaşayan məskənlərdəndir. UNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri 1981-ci ildə Parisin İnsan muzeyində «Avropanın ilk sakinləri» adlı sərgidə nümayiş etdirilmişdir.

Hazırda Qəbələ rayonunda dövlət mühafizəsinə götürülmüş 93 daşınmaz tarixi mədəniyyət abidələri vardır. Bunlardan biri dünya əhəmiyyətli, qalanları isə ölkə və yerli əhəmiyyətli abidələrdir. Qədim Qəbələ şəhəri, Həzrə türbələr kompleksi, Səkkizgüşəli məscid, Alban məbədi, Komurad piri, Həzrə kəndində daş səndugələr abidələri buna misaldır. Lakin sovet hakimiyyəti illərində ölkəmizdə mövcud olan tarixi memarlıq abidələrimizin qorunub saxlanılmasına, mühafizəsinə və bərpasına laqeyd münasibət olmuşdur. Bir çox nadir memarlıq abidələrimiz baxımsızlıq, laqeydlik ucbatından sökülüb--dağılmış, xeyli memarlıq abidələri erməni işğalı altında qalmışdır.

Azərbaycan ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə ulu öndərimiz Heydər Əliyev xalqın istək və arzusu ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələyə münasibət kökündən dəyişmişdir. Ulu öndərimiz Heydər Əliyevin qayğı və diqqətinin nəticəsində tarixi abidələrimizin qorunub saxlanmasında, əsaslı bərpasında, yenidən qurulmasında xeyli dönüş yaranmışdır. Belə ki, Beynəlxalq inkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış «Mədəni irsin qorunmasına yardım haqqında» sazişə uyğun olaraq Bakıda Şirvanşahlar saray kompleksində, Naxçıvanda Möminə Xatun və Qarabağlar türbəsində, Şəki xanlarının sarayında və digər bölgələrdəki tarixi abidələr bərpa edilmiş və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə isə Azərbaycan Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi UNESKO-nun «Dünya mədəniyyət irsi» siyahısına daxil edilmişdir. Ölkə başçısı İlham Əliyev də ümummilli liderimiz Heydər Əliyevin mədəniyyət abidələrimizin qorunub saxlanılması-sahəsində yürütdüyü siyasətini uğurla və ardıcıl davam etdirir. Prezident xalqımızın keçmiş tarixinin, mədəniyyətimizin gələcək nəsillərə çatdırılması işinə daim qayğı göstərir və bu sahəni gücləndirmək məqsədilə müvafiq sərəncamlara imza atır.

Bu gün UNESKO-nun abidədələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

**Aslan CƏLİLOV.**

## Hamımızın sevimlisi

Dünyada elə insanlar olur ki, onlar həyata tək gəlirlər. Onların tayı-bərabəri, bənzəri olmur, seçilənlərdən biri olur. Tarixdə belələri təkrar olunmur, elə təkrarsızlıqları onları dahiləşdirir. Belə dahi şəxsiyyətlərdən biri də ümummilli liderimiz, ulu öndərimiz Heydər Əliyevdir.

Heydər Əliyev 1923-cü il may ayının 10-da Azərbaycanın qədim, ulu keçmişə malik, gözəlliklər diyarı Naxçıvanda dünyaya göz açmışdır. Bütün uşaqlar kimi böyüyüb boya-başa çatsa da, taleyi tamamilə başqalarından fərqləndi.

Heydər Əliyev böyüdü, ailə qurdu, ata kimi tamamilə başqa oldu. Çünki bir ailənin deyil, neçə-neçə ailənin, insanın, vətəndaşın taleyinə, dərdinə şərik oldu. Bir el atası kimi, müdrik dahi kimi hamımızın sevimlisi, əzizi oldu. Heydər Əliyev bütün insanları sevdiyi kimi, onlara diqqət, qayğı göstərmişdir. Təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələri və bütün elmlərə xüsusi əhəmiyyət verən rəhbər hər bir sahədə geniş irəliləyişlərə və uğurlara nail olmuşdur. Uşaqların gələcəyimizin əsası olduğunu Heydər Əliyev daha qabarıq şəkildə vurğulayaraq onlara diqqəti ön plana çəkmiş, uşaqlara xüsusi qayğı və diqqətin ayrılmasını dövlət səviyyəsində həll etmişdir. «Uşaqlar bizim gələcəyimizdir»—deyən Heydər Əliyev gələcək nəslin yeni ruhda, sabaha yetkin şəkildə hazırlanması naminə xüsusi proqramlar həyata keçirmişdir. Uşaqların gələcəkdə xalqımızın rifahı naminə böyük işlər görəcəyini Heydər Əliyev dəfələrlə vurğulamışdır.

«Uşaqları qoruyaq, sevək, əzizləyək, çünki onlar bizim gələcəyimizin dayağıdır, hərəkətverici qüvvəsidir». Bu sözləri deyən ümummilli lider Heydər Əliyev uşaqlara qarşı sevginin, diqqətin ayrılmasını hər bir vətəndaşın borcu olmasını bir daha vurğulamışdır. Heydər Əliyevlə bir dövrdə yaşayan vətəndaşlar bu günün uşaqlarına fəxrlə deyirlər: «Biz dahi şəxsiyyətlə bir zamanda yaşamışıq».

**Gülər XƏLİLOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşı.**

## Sakit... dərs gedir

Əvvəlcədən tərtib olunmuş cədvələ əsasən qonaqları gözləyirdik. Onlar Qəbələ şəhərindəki şəhid Nicat Apayev adına tam orta məktəbin V sinif şagirdləri idilər. Uşaqlar rayon tarix-diyarşünaslıq muzeyinə müəllimələri ilə birlikdə gəlmişdilər.

Tarixi sənədlər, eksponatlar haqqında şagirdlərə məlumatı Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi İlhamə Seyidova verirdi. Burada «Qədim qalalar» mövzusunda keçirilən tarix dərsində V sinif şagirdləri Heydər Əliyevin 90 illik yubileyi, 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar geniş məlumatlar da əldə etdilər. Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi Azərbaycanın bütün tarixini sənədlər əsasında qoruyub saxlayır.

Azərbaycvan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində olması, muzey haqqında fəxri kitaba rəy yazması barədə uşaqlara məlumat verildi.

Ümumiyyətlə, məktəblərin muzeylərdə tarix dərslərini tədris etməsi çox faydalıdır. Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi onları tarixi öyrənmək üçün hər cür əyani vəsaitlə təmin edir. Çünki tariximizi bilmək, yaşatmaq hamımızın borcudur.

**Nigar ELDAROVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşı.**

## Doğma ölkəmizdə

### Ölkədə yeni sənaye kompleksinin təməli qoyulacaq

Bu ilin sentyabr ayında Azərbaycanda yeni neft, qaz emalı və neft-kimya kompleksi tikintisinin təməli qoyulacaq. Bu kompleks ölkədə karbohidrogen xammalının kəşfiyyatı, hasilatı, nəqli və satışı sahəsinin inkişafı üçün əhəmiyyətli layihədir. 2013-2020-ci illərdə kompleksin tikintisinə 14 mindən çox işçi qüvvəsinin çalışması nəzərdə tutulur.

### ARDNŞ fevral ayında dövlət büdcəsinə ödənilən vəsaiti artırıb

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) fevral ayında dövlət büdcəsinə 132 milon 285 min manat ödəyib. Bu, ötən ilin fevral ayına nisbətən 40 milyon 332 min manat, yaxud 43,9 faiz çoxdur. Ümumiyyətlə, bu ilin yanvar-fevral aylarında büdcəyə 266 milyon 516 min manat ödənilmişdir. Bu göstərici 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 70 milyon 702 min manat artıqdır.

### Paytaxtın girişində yeni avtomobil yol ötürücüsü tikilir

Nəqliyyat Nazirliyinin «Azəryolservis» ASC Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 9-cu kilometrində (Bakı Beynəlxalq Avtovağzalının yaxınlığında) yeni avtomobil yol ötürücüsünün tikintisinə başlayıb. Mövcud 3 aşırımlı avtomobil yol ötürücüsünün uzunluğu 105, eni 15,3 metrdir. Yeni yol ötürücüsü 4 aşırımlı olacaq.

Əgər hazırda sözügedən yol 4 zolaqlıdırsa, tikinti işləri başa çatdıqda zolaqların sayı 6-ya çatacaqdır.

Bu il ölkədə yeni sənaye kompleksinin təməli qoyulacaq

### Qəbələ RLS-in təhvil-təslimi ilə bağlı komissiyalar çərçivəsində iş başa çatmışdır

AzərTAc xəbər verir ki, Qəbələ RLS-in təhvil-təslimi iki mərhələdən ibarətdir. Birinci mərhələdə inventarlaşdırma aparılmalı idi ki, bu iş başa çatmışdır. İkinci mərhələ isə tam təhvil-təslim işini-Rusiyaya məxsus olan əmlakın daşınmasını, bu stansiyada çalışan heyətin, onların ailə üzvlərinin getməsi ilə əlaqədar məsələlərin həllini nəzərdə tutur. Azərbaycan tərəfindən lazımi tədbirlər həyata keçirilmiş, təhvil-təslim ilə bağlı bütün sənədlər rəsmiləşdirilmişdir. Stansiya artıq fəaliyyətini tamam dayandırmışdır. Oradan Rusiyaya aparılacaq əmlak artıq müəyyən saxlama yerlərinə yığılmış və həmin ölkə tərəfindən bu əmlakın daşınması üçün tədbirlər həyata keçirilir.